Azərbaycan Respublikası təhsil nazirinin 12 oktyabr 2011-ci il tarixli, 1649 nömrəli əmrinə əsasən 23-24 fevral 2012-ci il tarixlərində İntel ISEF Beynəlxalq Müsabiqə çərçivəsində "Sabahın alimləri" Respublika Müsabiqəsi keçirilmişdir.

Müsabiqənin həmtəşkilatçıları və sponsorları Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, "Madad" Təşkilatı və İntel korporasiyası olmuş, elmi dəstək isə Bakı Dövlət Universiteti və Sumqayıt Dövlət Universiteti tərəfindən verilmişdir.

Müsabiqədə Bakı və Sumqayıt şəhərlərində fəaliyyət göstərən 18 ümumi təhsil müəssisələrinin IX-XI sinif şagirdləri öz tədqiqat layihələri ilə iştirak etmişlər.

Müsabiqənin Münsiflər Heyəti 8 kateqoriya (riyaziyyat, fizika, kimya, biologiya, tibb, sağlamlıq və psixologiya, ekologiya, mühəndislik, kompyuter elmləri) üzrə şagird layihələrinin qiymətləndirilməsini həyata keçirmişdir. Münsiflər Heyətinin qərarına görə müxtəlif nominasiyalar üzrə I, II və III yerlərə 37 layihə, 57 şagird, o cümlədən I yerə 7 layihə 13 şagird, II yerə 13 layihə 17 şagird, III yerə 17 layihə 27 şagird layiq görülmüşdür.

Qaliblərə müsabiqənin təşkilatçıları adından diplom, medal, pul mükafatları və hədiyyələr təqdim edilmiş, yer tutmayan finalçılara isə müsabiqənin sertifikatları verilmişdir.

Qeyd olunanları nəzərə alaraq

QƏRƏ EDİRƏM:

23-24 fevral 2012-ci il tarixində İntel ISEF Beynəlxalq Müsabiqə çərçivəsində keçirilmiş "Sabahın alimləri" Respublika Müsabiqəsinin Münsiflər Heyəti tərəfindən seçilən qaliblərin siyahısı əlavə edilsin (əlavə olunur).

Nəzərə alınsın ki, 13-18 may tarixlərində ABŞ-ın Pensilvaniya ştatının Pitsburq şəhərində keçiriləcək İntel ISEF müsabiqəsində iştirak etmək üçün Münsiflər heyəti tərəfindən müsabiqənin qaliblər arasından aşağıda adları göstərilən şagirdlər seçilmişdir:

- Məmmədov Elxan Elşən oğlu, Akademik Z.Əliyeva adına məktəbin X sinif şagirdi;

- Məmmədov Orxan Elşən oğlu, Akademik Z.Əliyeva adına məktəbin X sinif şagirdi;

- Bayramov Arif Anar oğlu, BDU-nun nəzdində Gənc İstedadlar Liseyinin IX sinif şagirdi;

- Səfərəlizadə Mahirə Mayis qızı, BDU-nun nəzdində Gənc İstedadlar Liseyinin X sinif şagirdi;

- Həsənli Elçin Əlihəsən oğlu, Sumqayıt şəhəri İstedad liseyinin X sinif şagirdi (müşahidəçi qiyamda).

3. Nəzərə alınsın ki, şagirdlərin və onların müşayiət edən nümayəndə heyəti üzvlərinin səyahət xərcləri İntel Fondation tərəfindən ayrılan qrant hesabına ödənilməlidir.

4. Təhsil Nazirliyi Elm şöbəsinin müdiri, "Sabahın alimləri" Respublika müsabiqəsinin direktoru G.Hüseynovaya tapşırılsın:

4.1. İntel ISEF-a göndərilən şagirdlərin layihələrinin İngilis dilində hazırlanmasına nəzarət etsin;

4.2. Şagirdləri ABŞ-a müşayiət edəcək nümayəndə heyəti barədə təkliflərini Nazirliyin rəhbərliyinə təqdim etsin;

4.2. İntel ISEF-in Təşkilat Komitəsinə müvafiq məlumatların göndərilməsini təmin etsin.

5. Təhsil Nazirliyinin Beynəlxalq əlaqələr şöbəsi (T.Əliyeva) İntel İSEF-da iştirak edəcək şagirdlər üçün pasport almmasına köməklik etsin.

6. Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsi (B.Hüseynzadə) bu əmrin əlavəsi ilə birlikdə "Azərbaycan müəllimi" qəzetində və "Təhsil xəbərləri" məlumat-informasiya məcmuəsində dərc olunmasını, Nazirliyin İnternet saytında yerləşdirilməsini təmin etsin.

7. Ümumi şöbə (X.Fərəcov) əmrin çoxaldıb yerlərə göndərilməsini təşkil etsin.

8. Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

Əsas: Münsiflər heyətinin iclaslarının protokolları, Elm şöbəsinin müdiri G.Hüseynovanın təqdimatı.

Misir MƏRDANOV,
Azərbaycan Respublikasının təhsil naziri
13 mart 2012-ci il

№383

"Səhəng əlləri" Respublika Müsabiqəsinin qaliblərinin siyahısı